# Xocalı soyqırımından 24 il ötür

## Bakı Dövlət Universitetində faciə qurbanlarının xatirəsi anılıb



Bakı Dövlət Universitetində Xocalı faciəsinin 24-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Universitetin foyesində Xocalı soyqırımından bəhs edən rəsm əsərlərinin sərgisinə baxışla başlayan tədbir işini böyük akt zalında davam etdirib. Universitetin rektoru, akademik Abel Məhərrəmov çıxış edərək bildirib ki, ən qəddar və amansız terror hadisələrindən olan Xocalı soyqırımı 200 ildən artıq müddətdə erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağda erməni quldur birləşmələri keçmiş sovet ordusuna məxsus alayın əsgər və zabitləri ilə birlikdə Xocalı şəhərini yerlə-yeksan edib, dinc əhalini, xüsusilə uşaqları, qadınları, qocaları ağlasığmaz vəhşiliklə öldürüblər. Rektor deyib ki, ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan hökuməti və parlamenti Xocalı soyqırımı haqqında həqiqətləri dünya dövlətlərinə, parlamentlərinə və beynəlxalq təşkilatlara çatdırıblar. Rektor Prezident İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun Rusiya nümayəndəliyi tərəfindən bu siyasətin uğurla həyata keçirildiyini qeyd edib.

Sonra Xocalı qətliamının ilk şahidi, jurnalistləri bu vəhşiliyin törədildiyi yerə helikopterlə aparan ukraynalı pilot Kravec Leonid Markoviçin xatirələri dinlənilib. Daha sonra tələbələrin Xocalı soyqırımı ilə əlaqədar hazırladığı səhnəcik və videoçarx nümayiş etdirilib.

**Mətbuat və informasiya şöbəsi**

## UNEC tələbələrindən "Xocalıya ədalət!" kampaniyasına dəstək



Fevralın 25-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunan tədbir keçirilib.

Tədbirdən öncə iştirakçılar Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılan, yarpaqlarında faciə qurbanlarının adları həkk olunan abidə ağacı və tələbələrin soyqırımı əks etdirən rəsm əsərləri ilə tanış olublar.

Tədbir soyqırım qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə başlanıb. UNEC-in rektoru, professor Ədalət Muradov Xocalı soyqırımının bəşəriyyət və insanlıq əleyhinə yönəlmiş dəhşətli cinayət olduğunu bildirib. Bu amansız soyqırımının acı nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasında, Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilməsində ulu öndər Heydər Əliyevin xidmətlərini xüsusi vurğulayıb.

Heydər Əliyev Fondunun soyqırımı həqiqətlərinin dünyaya bəyan edilməsi istiqamətindəki xidmətləri xüsusi qeyd edən rektor, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının əhəmiyyətindən danışıb. UNEC tələbələrinin "Xocalıya ədalət!" çağırışına qoşularaq "UNEC's Khojaly outreach" adlı təqdimat müsabiqəsi keçirdiyini bildirib.

Tədbirdə müsabiqə qalibləri Nigeriya vətəndaşı Con Aroqun və Elşad Quliyev öz təqdimatlarını nümayiş etdiriblər. Sonra Xocalıya həsr edilən videoçarx izlənilib. UNEC-in Yaradıcılıq Mərkəzinin hazırladığı "Xocalı soyqırımı tablosu" tamaşası oynanılıb.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

## ADMİU-da Xocalı faciəsinin 24-cü ildönümü qeyd olunub



Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bir qrup tələbəsi və 11 nömrəli internat məktəbinin şagirdləri fevralın 22-də Xocalı soyqırımı abidəsini ziyarət edərək qarşısına əklil qoyublar. Daha sonra universitetin Səda tədris teatrında Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuş Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, professor Fərəh Əliyeva Xocalı soyqırımının təkcə Azərbaycanın deyil, ümumən insanlıq tarixində ən qorxulu kütləvi terror aktlarından biri olduğunu deyib. Bildirib ki, 24 ildir xalqımız bu acını yaşamaqla bərabər bütün dünyaya haqq-ədalət səsimizi çatdırmağa, universitetin müəllim və tələbə heyəti də öz üzərinə düşən işi görməyə, bacardığı qədər yaradıcılığında bu dəhşətli faciəni əks etdirməyə çalışır. Çıxışının sonunda rektor universitetin Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə fevral ayının əvvəlindən elan olunmuş Xocalı faciəsi şəhidlərinə həsr olunan bədii qiraət müsabiqəsinin qalibi Mirxədicə Mirzəyevanı diplom və mükafatla təltif edib. Tədbirdə universitetin tələbələrinin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub.

Xocalı faciəsi şəhidlərinin xatirəsinə həsr olunmuş "Dolu" filminin yaradıcı heyətinin də iştirak etdiyi tədbirdə filmin rejissoru Elxan Cəfərov çıxış edərək filmin ideyası, çəkilişlərindən danışıb. Sonra film nümayiş olunub.

## Aqrar Universitetində qan yaddaşımızın dəhşətli səhifələri vərəqləndi



Azərbaycan Dövlət Aqrar Universitetində "Xocalı soyqırımı xalqımızın qan yaddaşının ən dəhşətli səhifəsidir" adlı tədbir keçirilib.

İştirakçılar tədbirdən əvvəl universitet tələbələrinin faciəni əks etdirən rəsm əsərlərinə baxıb, hazırladığı guşə ilə tanış olublar.

Universitetin rektoru, professor, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov çıxışında deyib ki, 1992-ci ilin müdhiş fevral gecəsi Ermənistan silahlı birləşmələri sovet ordusundan qalan 366-cı alayın köməyi və iştirakı ilə Xocalı sakinlərinə qarşı dəhşətli soyqırım aktı törədiblər. Dinc, silahsız xocalılara bir gecənin içində amansız divan tutulub. Soyqırım nəticəsində yüzlərlə qadın, kişi, yaşlı, cavan, körpə uşaq həlak olub. Yüzlərlə insan yaralanıb, xəsarət alıb, şikəst olub, əsir düşüb.

Rektor daha sonra qeyd edib ki, bu gün dünyanın güc birliklərinin Xocalıya ikili münasibəti davam edir, faciənin dünya miqyaslı hüquqi qiyməti gecikdirilir. Lakin hər bir vətənpərvər azərbaycanlı kimi universitetimizin tələbələri də soyqırımı hadisəsinin ədalətli həlli istiqamətində dəyərli aksiyalar həyata keçirir. Universitetin beynəlxalq əlaqələr şöbəsinin xətti ilə artıq dünyada 1000-dən artıq ünvana Xocalı həqiqətlərini əks etdirən məlumatlar, video görüntülər, filmlər göndərilib.

Tədbirdə Türkiyənin Gəncədəki baş konsulu Orhan İşıq, YAP Xocalı Rayon Təşkilatının gənclər birliyinin nümayəndələri iştirak ediblər.

**Qalib RƏHİMLİ,**
*Mətbuat xidmətinin rəhbəri*

## Xocalı həqiqətləri Çin dilində



Fevralın 25-də tarixində Azərbaycan Dillər Universitetinin (ADU) Çin dili və mədəniyyəti mərkəzində ölkəmizin universitetlərində təhsil alan Çin tələbələrinin iştirakı ilə Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş tədbir keçirildi.

Tədbiri açan Çin dili və mədəniyyəti mərkəzinin müdiri, professor Rafiq Abbasov XX əsrin faciəvi hadisələrindən biri kimi Xocalı qətliamının nəticələri barədə danışaraq dünyada bu qanlı olay haqqında həqiqətlərin yayılması, Azərbaycan xalqının soyqırımı kimi bu faciənin tanınmasına nail olmağın vacibliyini xüsusi qeyd etdi.

Regionşünaslıq və beynəlxalq münasibətlər fakültəsinin dekanı, dosent Anar Nağıyev Xocalı soyqırımının tanınması üçün beynəlxalq ictimaiyyətin səylərinin intensivləşdirilməsinin vacibliyini bildirdi. Dekan son illər bir çox dövlətlərin qanunverici orqanlarında qətnamələrin qəbul olunmasının əhəmiyyətini qeyd etdi.

Sonra ADU-nun müəllimi Könül Abbasova, regionşünaslıq və beynəlxalq münasibətlər fakültəsinin Çinşünaslıq ixtisasında təhsil alan tələbələr Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində baş vermiş Xocalı soyqırımının təfərrüatları barədə Çin dilində məlumat verdilər.

Tədbirdə çıxış edən ADU-nun əməkdaşı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Xocalı hadisələrinin şahidi olan Vahid Əli oğlu özünün "Xocalı" poemasından bir parça söylədi.

ADU-nun tərbiyə işləri üzrə prorektoru, professor Ələddin Əliyev Xocalı soyqırımının beynəlxalq ictimaiyyət tərəfindən tanınması istiqamətində bu günədək Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əvəzolunmaz işlər gördüyünü bildirdi. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi altında "Xocalıya ədalət" kampaniyasının bu gün dünyaya səs saldığını söyləyən Ələddin Əliyev soyqırımının beynəlxalq miqyasda tanınması, hüquqi qiymət verilməsi üçün bütün gənclərimizin səfərbər olunacağına inandığını vurğuladı.

**İctimaiyyətlə əlaqələr Departamenti**

## Gəncə Dövlət Universitetində silsilə tədbirlər



Gəncə Dövlət Universitetində Xocalı soyqırımına həsr olunmuş silsilə tədbirlər keçirilib. Universitet Qadınlar Şurasının Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş "Xocalı soyqırımı qadınların gözü ilə" mövzusunda təşkil etdiyi seminar xüsusilə maraq doğurub.

Seminarı giriş sözü ilə humanitar məsələlər üzrə prorektor Asif Cavadov açaraq Xocalı soyqırımında azərbaycanlıların başına gətirilən vəhşiliklər haqqında məlumat verib. Qeyd edib ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səmərəli fəaliyyəti və Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət" kampaniyası sayəsində bu soyqırımı xeyli sayda ölkə tanıyıb.

Seminarda universitetin Qadınlar Şurasının sədri Nərgiz Tağıyeva bildirib ki, Azərbaycan xalqının başına gətirilən amansız və qəddar Xocalı soyqırımı insanlıq tarixinə ən qorxulu, kütləvi terror aktlarından biri kimi daxil olmuşdur.

Riyaziyyat-informatika fakültəsinin köçkün ailəsindən olan tələbəsi Hekayət Əhmədzadə müəllifi olduğu "İntiqam alınsın" adlı şeirilə, Yazıçılar Birliyinin üzvü, yazıçı publisist Ümbülbanu Hacıyeva, Azərbaycan tarixi kafedrasının müdiri, dosent Emma Aslanova, tarix-coğrafiya kafedrasının müəllimləri Nəsibə Hacıyeva, Arifə Əhmədova, universitetin "Yüksəliş" qəzetinin əməkdaşı Firəngiz İsmayılova çıxışlarında Xocalı faciəsinin Azərbaycan xalqının unudulmayan qan yaddaşı olduğunu bir daha vurğulayıblar.

İqtisadiyyat və idarəetmə fakültəsində keçirilən tədbirdə çıxış edən fakültə dekanı, dosent Şahin Xurşudov faciəni törətmiş erməni faşistləri ilə bərabər, onlara havadarlıq etmiş o zamankı SSRİ rəhbərliyini də lənətləyib.

Universitetin pedaqoji, filologiya, fizika və ümumi texniki fənlər, xarici dillər fakültələrində də Xocalı faciəsinə aid fotostendlər, videoçarxlar nümayiş etdirilib, tələbə və müəllimlərin iştirakı ilə yığıncaqlar keçirilib.

**Maqbet ƏHMƏDOV,**
*GDU-nun Mətbuat xidmətinin rəhbəri*